*UOT 94 (479.24)*

# AZƏRBAYCAN MƏRKƏZİ İCRAİYYƏ KOMİTƏSİNİN KOLLEKTİVLƏŞMƏ SİYASƏTİNƏ MÜASİR BAXIŞ

**N.Z.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***nuru_mamedov@mail.ru***

*Məqalədə Azərbaycan torpaqlarının 20-30-cu illər dövrünün ən ağrılı problemlərindən biri olan kollektivləşmə məsələsi və bu istiqamətdə Az.MİK-in fəaliyyət istiqamətləri müasir müstəvidə tədqiq edilir və ona münasibət bildirilir. Göstərilir ki, sovet imperiyası vaxtında kollektivləşmə məsələsinə həsr edilmiş bir sıra elmi əsərlər yazılmasına baxmayaraq, kommunist ideologiyasının sərt qaydalarının tətbiqi zamanı çoxlu nöqsanlar buraxılmış, Azərbaycan kəndinə və kəndlilərə xeyli ziyan və zərbələr vurulmuş, günahsız insanlar repressiyaya məruz qalmışdılar. Bütün bu məsələlər obyektiv araşdırılır.*

**Açar sözlər:** hökumət orqanları, Azərbaycan, mərkəz, elliklə kollektivləşmə, kəndlilər, kommunist siyasəti, ağır nəticələr

Respublikada kolxoz quruculuğu probleminin həyata keçirilməsi prosesində partiya və hakimiyyət orqanları nəinki ciddi siyasi səhvlərə, sosial-iqtisadi nöqsanlara yol vermiş, eyni zamanda, kütləvi «kollektivləşmə» əvəzinə bəlkə də «kütləvi həbsetmə», «kütləvi» güllələnməyə rəvac vermişlər. Kolxoz quruculuğu probleminə, respublikada kənd təsərrüfatının kollektivləşdirilməsinə dair sovet dönəmi vaxtında çoxlu kitablar, monoqrafiyalar yazılmış, dissertasiyalar müdafiə edilmişdir. Həqiqət naminə deməliyik ki, tədqiqat zamanı biz onlardan istifadə etmişik. Ancaq onu da etiraf etməliyik ki, onların çoxu mərkəzdən püskürülən kommunist ideologiyasının təsiri altında yazıldığına görə tarixi həqiqətləri obyektiv üzə çıxara bilməmiş, Azərbaycan kəndində baş verən hadisələr düzgün tədqiq edilməmişdir. Deyilənləri nəzərə alaraq respublikada aqrar məsələnin kardinal problemi olan kənd təsərrüfatının kollektivləşdirilməsi və kolxoz quruculuğu istiqamətində nöqsanlar və səhvlərin, habelə qazanılan «uğurların» obyektiv tədqiqinə cəhd etmiş və istəyimizə nail olmaq üçün xeyli arxiv materiallarını partiya və dövlət sənədlərini elmi dövriyyəyə cəlb etmişik.

20-ci illərin aqrar məsələsinin tədqiqi zamanı aydın olur ki, Azərbaycanın partiya və hakimiyyət orqanları ilk günlərdən «xalqa torpaq vermək»

taktikası ilə özünü kəndlilərə yaxınlaşdırmaq siyasəti yeridərək qarşıya qoyduğu vəzifələri heç də axıradək yerinə yetirmədilər. Torpaq haqqında dekretlə Azərbaycan hökuməti 2900 000 desyatin torpağı ümumxalq mülikiyyətinə çevirdilər, 1400 000 desyatin torpağı isə kəndlilərə «verdilər». Əgər bu faktlar doğrudursa, bəs necə olur ki, 1921-ci ilin yanvarına olan məlumata görə cəmi 582510 desyətin torpaq kəndlilərə paylanmışdı (17, 124-125).

Xalq Torpaq Komissarı D.Bünyadzadənin məruzəsində Azərbaycanda becərilən əkin sahələri aşağıdakı kimi olmuşdur (5, i.138, 110):

1914-cü ildə 730.000 desaytin
1917-ci ildə 661.000 desyatin
1921-ci ildə 480.000 desyatin
1922-ci ildə 670.000 desyatin
1923-cü ildə 787.000 desyatin
1924-cü ildə 899.000 desyatin
1925-ci ildə 960.000 desyatin

Bu rəqəmlərdən də aydın olur ki, respublikada kəndlilərə paylanan və becərilən torpaq sahələri 1923-cü ildə bir təhər 1914-cü il səviyyəsinə çata bilmişdi. Bu yerdə sovet təbliğatı öz işini görürdü və bu ideologiya partiya qərarları ilə möhkəmləndirilmişdi. AK(b) P MK Rəyasət Heyətinin 1923-cü il mayın 17-də keçirilən iclasında xan və bəylərdən alınan torpaqların Xalq Komissarlarının ixtiyarına və həmin torpaqların kəndlilərə verilməsi haqqında qərar qəbul edildi (5, i.173, 2). Bu siyasətlə kəndliləri aldadan kommunistlər öz hakimiyyətini möhkəmlətməyə çalışırdılar.

Leninin kooperativ planını rəhbər tutan dövlət orqnaları belə hesab edirdilər ki, iri kollektiv təsərrüfatlar yaratmağın istehsal koperasiyasının əsas formaları ağıdakılardır: 1) kənd təsərrüfatı kommunası; 2) torpağı birgə becərmə şirkətləri (TOZ-lar); 3) kənd təsərrüfat arteli (15, 26).

Elliklə kollektivləşməyə keçid dövründə isə dördüncü «ən güclü» təsərrüfat forması olan kolxozlardır.

Göybirliyinin məlumatına görə Azərbaycanda kollektiv təsərrüfatların inkişafını 3 mərhələyə ayırmaq olardı (5, 261, 6-7):

1) 1921-1922-ci illər: Bu dövrdə kollekiv təsərrüfatlar olan kommuna və artellərin sakit və kütləvi yaranan dövrüdür. Bu müddətdə 2678 təsərrüfatı birləşdirən 178 kommuna və artel yaranmışdı;
2) 1923-1924-cü illər. Bu dövr yaranmış kommuna və artellərin kütləvi şəkildə ləğv edilməsi ilə (səhv siyasət) xarakterizə olunur. Onların əvəzinə iqtisadi və təşkilati cəhətdən daha möhkəm olan kollektiv təsərrüfat birlikləri yaranır. 1924-cü il oktyabrın 1-nə olan məlumata görə 1 kommuna (25 təsərrüfatı birləşdirir) və 2 kənd təsərrüfatı arteli (cəmi 17 üzv) var idi.
3) Kənd təsərrüfatı kooperasiyası İttifaqının yaranmasından (noyabr, 1924) başlayır və axıra qədər. Bu dövrdə kollektivləşmənin yeni formaları yaradılır (5, 261, 6-7).

Deyilən problemin tədqiqi zamanı əldə edilən çoxlu sənədlər və mate-

riallara əsasən müəllif həmin bölgü prinsipi ilə qətiyyən razılaşmır. Ona görə ki, respublikada kənd təsərrüfatının kooperativləşdirilməsi problemi ilə kənd təsərrüfatının kollektivləşdirilməsi problemini qarışdırmaq olmaz. Həm də həmin dövrün rəqəmləri haqqında respublika tarixşünaslığında bir-birinə zidd və müxtəlif rəqəmlər verilir. Belə olan halda istər-istəməz biz çox çətin problemlərlə qarşılaşmalı oluruq. Nəzərə alsaq ki, tarixşünaslıq əsərlərinin çoxu sovet dönəmində yazılmışdır, (əlbəttə böyük ehtiramla biz həmin fundamental əsər, dissertasiya və monoqrafiyalardan istifadə etmişik), o zaman hər şey aydın olar.

Bütün çətindiklərə və dövrün ziddiyyətli rəqəmlərinə baxmayaraq, Azərbaycanda aqrar problemin ana xəttini təşkil edən kolxoz quruculuğu və kənd təsərrüfatının kollektivləşməsini, zənnimizcə, aşağıdakı şəkildə dövrləşdirmək və xarakterizə etmək daha məqsəduyğun olar:

| | | |
|---|---|---|
| 1 | 1921-1922-ci illər | Kollektiv təsərrüfatların yaradılması dövrü |
| 2 | 1923-1924-cü illər | Durğunluq və dağınıqlıq dövrü |
| 3 | 1925-1929-cu illər | Kollektiv təsərrüfatların təşkili dövrü |
| 4 | 1930-1932-ci illər | Kolxozların yenidən təşkilində «dönüş» dövrü |
| 5 | 1933-1935-ci illər | Kolxozların təşkilat-təsərrüfat və siyasi cəhətdən möhkəmlənməsi dövrü |
| 6 | 1936-1937-ci illər | Kolxozların inkişaf dövrü |
| 7 | 1938-1941-ci illər | «Yüksəliş» dövrü və kənd təsərrüfatının kollektivləşməsinin başa çatması |

Bizcə aqrar məsələnin tədqiqi zamanı bu bölgü prinsipi ilə razılaşmaq olar.

1928/29-cu illərin kənd təsərrüfat kompaniyalarını müvəffəqiyyətlə başa çatdırmaq üçün Az.MİK özünün təşkilat şöbəsinin yeni-yeni iş planlarını (1, i.3993, 1) hazırladı. Həmin iş planlarında kənddə aparılan kolxozlaşma siyasətinin başlıca istiqamətləri müəyyənləşdirilmiş və yerli hakimiyyət orqanlarının konkret vəzifələri göstərilmişdir. Az.MİK-in təlimatına görə yerli sovetlər kolxoz istehsalat planlarına rəhbərlik edir, kolxoz rəhbərlərinə tapşırıqlar verir, kolxozun planını təsdiq edir, kolxoz həyatının bütün qanunlarına nəzarət edirdi (1, i.3985, 1-11). Bu hüquqlar qanunla tənzimlənirdi.

Kənd təsərrüfatının kollektivləşməsinə dair bir çox qərarlar qəbul edildi: SSRİ MİK və XKS «Kolxoz sistemini möhkəmləndirmək haqqında» 1929-cu il 21 iyun qərarı, SSRİ MİK Rəyasət Heyətinin 1929-cu il 4 sentyabr qərarı, ZSFSR MİK Rəyasət Heyətinin həmin məsələyə dair qərarı (2, i.7582, 1) və başqa qərarlar yerli və ali hakimiyyət orqanlarının fəaliyyətinin artırılmasına göstərişlər verdi. Həmin qərarlarda Sovetlərin kolxoz quruculuğunda rəhbərliyinin artırılması, bu işə mane olan «ziyançı ünsürlərin» məhv edilməsi, yoxsullarla ortababların ittifaqının möhkəmlənməsi sahəsində vəzifələrini müəyyənləşdirdi.

Həyata keçirilən tədbirlər nəticəsində kolxozların təşkili istiqamətində canlanma yarandı, kənd təsərrüfatında sosialist bölməsinin çəkisi artdı. Əgər 1927-ci ildə kolxozların sayı 150 idisə, 1928-ci ildə kolxozların sayı 287-yə (3, i.203, 6), 1929-cu ildə kolxozların sayı 535-ə çatmışdı. 1928-ci ildə kol-

xozlarda 4500 təsərrüfat, 1929-cu ildə isə 11.600 təsərrüfat birləşmişdi (21, 7 aprel, 1929; 12 fevral, 1931).

Göründüyü kimi, kənd təsərrüfatının kollektivləşdirilməsi proqramının həyata keçirilməsi, kolxoz quruluşunun «qələbəsi», sosializm cəmiyyətinin möhkmlənməsi üçün partiya və hökumət bir çox qərarlar vermiş və təbii ki, qarşıya qoyulan vəzifələr «müvəffəqiyyətlə» yerinə yetirilmişdir. Respublikada kollektivləşdirmə işində 1930-cu ildə «dönüş» yarandı və qazanılan nailiyyətlər davam etdirildi. Respublikada kənd təsərrüfatının kollektivləşdirilməsi dinamikası illərə görə aşağıdakı kimi olmuşdur (25, 141; 3, i.203, 6; 21, 7 aprel 1929; 12 fev., 1931; 8, 196-198; 26, 78). Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının kollektivləşdirilməsinə dair respublika tarixşünaslığında bir-birindən fərqli rəqəmlər və faizlər göstərilmişdir. Biz rəsmi dövlət sənədlərindən və arxiv materiallarından istifadə etməklə cədvəl hazırlamışıq.

| | Kolxozların sayı | Təsərrüfatların sayı | Faiz |
|---|---|---|---|
| 1927-ci il | 150 | 2.688 | - |
| 1928-ci il | 287 | 4.500 | 1,3% |
| 1929-cu il | 535 | 11.600 | 3,4% |
| 1930-cu il | 1389 | 44.400 | 16,3 % |
| 1931-ci il | 1847 | 56.056 | 17,6% |
| 1932-ci il | 3452 | 171.348 | 50,6 % |

Respublikanın tarlalarında 1924-cü ildə 51 traktor, 1925-ci ildə 200 traktor, 1928-ci ildə 223 traktor (21, 12 fevral, 1931; 27, 170), 1930-cu ildə 900 traktor, 1931-ci ildə 1900 traktor işləyirdi. Təkcə 1931-ci ildə respublikada 13 yeni MTS yaranmışdı (3, i.203, 6).

Bununla belə mərkəz həmişə olduğu kimi, yenə də Azərbaycanın kənd təsərrüfatının maşınlı texnika ilə təchiz və təmin edilməsində qısqanclıq edir, müəyyən bəhanələrlə planı kobud şəkildə pozurdu. Məsələn, 1929-cu ildə plan üzrə Azərbaycana 350 traktor gətiriləcəyi halda, cəmi 75 traktor gətirilmişdi (19, 51). Halbuki, mərkəz Azərbaycandan çox şey tələb edirdi.

Respublikada sovxozların sayı da artmışdı. 1928-ci ildə 15, 1929-cu ildə 13, 1930-cu ildə 26, 1931-ci ildə 62, 1932-ci ildə isə 88 sovxoz var idi (16, 118).

Kənd təsərrüfatının elliklə kollektivləşdirilməsinin dərindən araşdırılması prosesində bir-birinə zidd rəqəmlərə rast gəlməklə müəyyən fikir dolaşıqlığı da özünü göstərir. Belə dolaşıq faktlar və rəqəmlər istər sovet tarixşünaslığında, istərsə də Azərbaycan tarixçilərinin əsərlərində kifayət qədərdir. Tarixşünaslıqda belə bir ümumi fikir geniş kök salıb ki, birinci beşillik vaxtından əvvəl yerinə yetirildi. Ancaq bu, heç də belə deyil. Əgər birinci beşillik yerinə yetirilmişdisə, bəs, Azərbaycan kəndində belə gerilik haradan idi, nə üçün Azərbaycan kəndində kollektivləşmə nə 1932-ci ildə, nə 1933-cü ildə, nə də 1934, 1935, 1936-cı ildə «qələbə çalmadı». Necə oldu ki, kollektivləşmə ikinci beşilliyin son ilində zorla «qələbə çaldı». Ancaq 1937-ci ildə də kollektvləşmə «qələbə çalmadı». Biz tədqiqat zamanı belə fikrə gəlirik ki, mərkəz istəydiyinə

nail ola bilmədi və kəndlər «başdan-başa kollektivləşdirmə»ni başa çatdıra bilmədi. Heç birinci beşillikdə də mərkəz istədiyinə nail ola bilmədiyi üçün ilk beşilliyin yekun rəqəmlərini saxtalaşdırmışdı və sovet cəmiyyətinə yalançı tezislərlə məlumat verilmişdi. Azərbaycan kəndində baş verən mürəkkəb ictimai, siyasi və sosial-iqtisadi, psixoloji proseslər onu göstərdi ki, kəndlilər kolxozlara daxil olmağa «könüllü» razılıq vermirdi. Nəticədə 30-cu illərin ortalarından başlayaraq kütləvi repressiyalar həyata keçirilməyə başlandı. Yerli hakimiyyət orqanlarının zorakılıq funksiyaları gücləndi. İş o yerə çatdı ki, mərkəzin gizli göstərişləri ilə ikinci beşilliyin son ilində partiya və dövlət məmurları müxtəlif ideoloji tezislərlə çıxışlar etməyə və kolxoz quruculuğunda baş verən ciddi nöqsanları aşağıların üzərinə atmağa və yeni-yeni təkliflərlə xalqın başını qatmağa ciddi cəhdlər etməyə başladılar.

Beləliklə, AZ. MİK-in həyata keçirdiyi tədbirlər nəticəsində ikinci beşillik illərində kolxoz quruculuğu sahəsində böyük «nailiyyətlər» və «qələbələr» qazanıldı. Qarşıya qoyulan kənd təsərrüfatının kollektivləşdirilməsi vəzifəsi yerinə yetirildi. Respublikada kənd təsərrüfatının kollektivləşdirilməsi dinamikasını aşağıdakı cədvəldən aydın görmək olar (19, f.7733, s.14, i.355, 7; 4, i.1309, 1; 6, i.1861, 122; 14, 12 iyun 1937; 11, 96).

| | 1 yanvar 1932 | 1 yanvar 1933 | 1 yanvar 1934 | 1 yanvar 1935 | 1 yanvar 1936 | 1 yanvar 1937 | 1 yanvar 1938 |
|---|---|---|---|---|---|---|---|
| Kolxozların sayı | 3330 | 3440 | 3729 | 3366 | 3593 | 3654 | 3676 |
| Onlarda təsərrüfat | 154.445 | 171.948 | 195.700 | 213.712 | 270.730 | 304.982 | 311.300 |
| Kollektivləşmə faizi | 43 | 45,4 | 51,7 | 59,3 | 75,0 | 84,5 | 86,5 |
| Hər kolxozda təsərrüfatların sayı | 46 | 50 | 53 | 64 | 75,2 | 83 | 84,7 |

Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da kolxoz quruluşunun «qələbəsi» ikinci beşilliyin başlıca yekunu idi. Qarşıya qoyulan vəzifələrin həlli kəndin yenidən qurulmasına, kolxoz quruluşunun «qələbəsinə» kömək etməklə bərabər, dövlət və hakimiyyət strukturlarının kənddə mövqelərinin möhkəmlənməsinə, onun ictiami bazasının genişlənməsinə, zəhmətkeşlərlə dövlət arasında əlaqə formalarının qüvvətlənməsinə, kütlələrin dövləti idarə etmək sahəsində işə daha artıq cəlb edilməsinə səbəb oldu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: «Kolxoz quruluşu tezliklə Azərbaycanın kənd təsərrüfatının … geriliyinə son qoydu, kəndliləri xöşbəxt, firavan həyata qovuşdurdu. Azərbaycan kəndləri maşınlarla, mexanizmlərlə silahlandı… Azərbaycan kənd təsərrüfatı yüksəliş yoluna qədəm qoydu» (10, 14).

Beləliklə, aparılan tədqiqat və araşdırmalar, dərin elmi təhlillər nəticəsində aydın olur ki, tariximizin ən mürrəkəb və ziddiyyətli problemi olan kollektivləşmə nəticəsində heç şübhəsiz ki, Azərbaycan kəndində müəyyən uğurlar və «qələbələr» olmuş, dövlətimiz və dövlətçiliyimiz yeni-yeni struktur bölmələrin yaradılması ilə möhkəmlənmiş, zəngin kadr potensialı yaranmış, kəndin sosial iqtisadi siması dəyişmişdir. Bununla belə kollektivləşmənin zorakılıqla həyata keçirilməsi nəticəsində mayası zəhmətlə yoğrulan, səhər-

dən-axşama qədər tarlalarda canını qoyan və həmişə də dövlətə və dövlətçiliyimizə sədaqətli olan Azərbaycan kəndlilərinə ağır zərbələr vurulmuş, haqsızlıqlar göstərilmiş, on minlərlə «varlı» kəndlilər repressiyaların məsum qurbanlarına çevrilmişlər. Burada kəndlinin heç bir təqsiri yoxdur, törədilən amansız qəddarlıqdar isə aqrar siyasəti və kollektivləşmə xəttini düzgün qura bilməyən partiya və dövlət məmurlarının günahı idi. Buraxılan səhvlər və nöqsanlar, kütləvi cəza tədbirləri və qanunsuzluqlar, ölkədə və respublikada hökm sürən inzibati-amirlik sistemi, onların avtoritar idarəetmə strukturu və mərkəzdən planlaşdırma metodları kəndə və kəndlilərə ağır, çox ağır başa gəldi, faciələrlə dolu bir tarix yaşatdı.

U.Çerçillin bu sözlərini Stalin sonralar təsdiq etmək məcburiyyətinə qalacaqdır ki, «əvvəlcədən hazırlanmış kollektivləşmə hərbi siyasi iş formasında həyata keçirilirdi» (22, 160-161), özü də zorakılıqla və silahla.

«Sosializmin qələbəsi»nin, kollektivləşmənin «qələbəsi»nin, kolxoz quruculuğunda «böyük dönüş»ün əldə edilməsi kimi sovet təbliğat maşınının 70 ildə kök salmış yalançı ideologiyasının daxili mahiyyətini hələ 30-cu illərdə tənqid edənlər var idi. K.Kautski 1930-cu ildə yazırdı ki, sosializmin qələbəsinə nail ola biləcək kollektivləşmə eksperimenti dəhşətli faciələrlə nəticələnəcək və tam əminliklə deyə bilərəm ki, bu eksperiment nəinki alınmayacaq, həm də fəlakətlə bitəcək və bitməlidir (18, 11). Tədqiqat zamanı bu deyilənlərin tarixi həqiqət olduğu faktlarla təsdiq olundu.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f.379, siy.3. iş 2a
2. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f.379, siy.7, iş 62a
3. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f.379, siy.16, iş 1.
4. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi, f.796, siy.23, iş 23.
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, f.1, siy.74, iş 126.
6. Azərbaycan Respublikası MEA Tarix İnstitutunun Elmi Arxivi, f.1, siy.3, iş 1861
7. Azərbaycan tarixi (XIX –XXI əsrin əvvəli). Bakı: BDU, 2001, 263 s.
8. Azərbaycan SSR-in 40 illiyi. Bakı: Azərb. EA Tarix İnstitutu, 1960, 392 s. Azərbaycanda müdafiə olunmuş dissertasiyaların biblioqrafiyası (1920-1975). 1-ci hissə, humanitar elmlər / tərtibçi Z.V.Mustafayeva. Bakı: Elm, 1981, 402 s.
9. Cəfərov C. Azərbaycan kəndi: kollektivləşmə illərində (1920-ci illərin sonu -30-cu illər). Bakı: Elm, 2008, 299 s.
10. Əliyev H.Ə. Sovet Azərbaycanı 50 ildə Bakı: Bilik, 1970, 82 s.
11. Əlimirzəyev X. Azərbaycan kəndi Sovet hakimiyyəti illərində. Bakı: Azərnəşr, 1963, 208 s.
12. Həsənov C. Kollektivləşmə və tarixi həqiqət. Bakı: «Ədəbiyyat və incəsənət» qəzeti, 1989, 14 iyul.
13. İbişov (İbrahimli) F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: Mütərcim, 1996, 168 s.
14. «Kommunist» qəz., Bakı, 1937, 12 iyun
15. Qasımov Ə. Sosialist kənd təsərrüfatının iqtisadiyyatı. Bakı: Elm, 1968, 245 s.
16. Qüdrətov D.N. Birinci beşillikdə Azərbaycanda sovxoz quruculuğu (1928-1932-ci illər). Bakı: Azərb. SSR EA, 1962, 181 s.
17. Mirhadıyev M.M. Leninin sosializm qurmaq planının Azərbaycanda qələbəsi. Bakı:

Uşaqgəncnəşr, 1956, 128 s.
18. Rusiya Federasiyası Mərkəzi Dövlət Arxivi, f.3316, siy.11, iş 41
19. Rusiya Federasiyası Mərkəzi Dövlət Xalq Təsərrüfatı Arxivi, f.7486, siy.10, iş 965.
20. Баберовски Й. Враг есть везде. Сталинизм на Кавказе. М., Российская полит. энциклопедия, 2010, 855с.
21. «Бакинский рабочий» qəzeti: Bakı, 1929, 7 aprel; 1931, 12 fevral.
22. Белади Л., Краус Т. Сталин. М.: Полит. литература, 1989, 318 с.
23. Большевик, 1931, №9
24. Декреты Азревкома (1920-1921гг). Баку: Азернешр, 1988, 519 с.
25. Резолюции и постановления съездов советов Азербайджанской ССР (1921-1927гг.). Баку: АН Азерб. ССР, 1961, 200 с.
26. Советский Азербайджан за 50 лет. Ст. сб. Баку: ЦСУ, 1970. 265 с.
27. Токаржевский Е.А. Очерки истории советского Азербайджана в период перехода на мирную работу по восстановлению народного хозяйства (1921-1925гг.). Баку: 1956, АН Азерб. ССР, 211с.

.

## СОВРЕМЕННЫЙ ВЗГЛЯД ЦЕНТРАЛЬНОГО ИСПОЛНИТЕЛЬНОГО КОМИТЕТА АЗЕРБАЙДЖАНА НА ПОЛИТИКУ КОЛЛЕКТИВИЗАЦИИ

**Н.З.МАМЕДОВ**

### РЕЗЮМЕ

Целью данной статьи является исследования одной из болезненных проблем 20-30-х годов вопрос о коллективизации азербайджанских земель, а также высказать своё мнение о деятельности Центрального Исполнительного Комитета Азербайджана. В статье указывается, что во время Советской власти были написаны произведения по вопросам о коллективизации, но не смотря на это, были допущены серьезные ошибки в исследовании коммунистической идеологии. Здесь объективно рассматриваются репрессия невинных людей, все ущербы и удары нанесенные азербайджанским деревням и крестьянам.

**Ключевые слова:** органы власти, Азербайджан, центр, всеобщая коллективизация, крестьяне, политика коммунизма, тяжелые последствия

## CONTEMPORARY VIEW TO THE POLICY OF COLLECTIVIZATION OF AZERBAIJAN CENTRAL EXECUTIVE COMMITTEE

**N.Z.MAMMADOV**

### SUMMARY

The presented article deals with one of the main problems of Azerbaijan territories for the years of 20-30-s and investigates the activity of Azerbaijan Central Executive committee under contemporary conditions. Its is shown that, though some scientific plays were written and devoted to the problems of the collectivization during the Soviet period, during the existing period under severe communist ideology rules, there were made many mistakes, Azerbaijan villages and villagers were really damaged, some innocent people were arrested. All these problems are objectively investigated in the presented article.

**Key words:** Governmental organs, Azerbaijan, centre, whole collectivization, villagers, the communist policy, hard results